# COP29-dan əldə etdiyimiz təcrübəni Braziliyada keçiriləcək COP30 zamanı tətbiq edəcəyik

"İD Space kosmos sahəsində fəaliyyət göstərən Braziliya şirkətidir. Mən COP29-a bu gün, sessiyanın altıncı günündə qatılıram. İkinci dəfədir ki, Bakıda oluram. Keçən il Azərbaycanda keçirilən 74-cü Beynəlxalq Astronavtika Konqresində də iştirak etmişəm".

Bunu AZƏRTAC-a müsahibəsində İD Space şirkətinin baş direktoru Leonarda Xulyas Çaqas deyib.

Qonaq Bakıda olmaqdan məmnunluğunu ifadə edərək COP29-un möhtəşəm təşkil olunduğunu vurğulayıb: "Burada ehtiyacımız olan hər şərait yaradılıb. Hamı çox nəzakətlidir. COP29-un məndə xeyli müsbət təəssürat yaradacağına inanıram və ümid edirəm ki, buradan əldə etdiyimiz təcrübəni Braziliyada keçiriləcək COP30 zamanı tətbiq edəcəyik".

Azərbaycan.- 2024.- 17 noyabr (№ 253).- S.7.